# Azərbaycanın Milli Qəhrəmanının xüsusi fərqlənmə nişanını təsis etmək haqqında

# Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır**:

1. Azərbaycanın Milli Qəhrəmanının xüsusi fərqlənmə nişanı *«Qızıl Ulduz»* medalı tə’sis edilsin.

2. *«Qızıl Ulduz»* medalının şəkli və təsviri təsdiq edilsin (əlavə olunur).

***Azərbaycan Respublikasının Prezidenti***

***Əbülfəz ELÇİBƏY***

***Bakı şəhəri, 7 iyul 1992-ci il***

***№ 201***

***«Həyat» qəzetində dərc edilmişdir (31 iyul 1992-ci il, № 149).***

***«Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı»nda dərc edilmişdir (1992-ci il, № 13, maddə 492)***

***6 fevral 1998-ci il tarixli, 429-IQD nömrəli Qanuna əsasən dəyişikliklərlə.***

# *«Qızıl Ulduz» medalının*
# *TƏSVİRİ*

*«Qızıl Ulduz» medalı üz tərəfində ikiüzlü hamar şüalar olan, 31,5 mm qabarit ölçülü səkkizguşəli ulduzdan ibarətdir, sarı qızıldan hazırlanmışdır.*

*Arxa tərəfi hamar səthlidir, ortasında «Azərbaycanın Milli Qəhrəmanı» sözləri yazılmışdır. Yuxarı şüanın küncündə medalın nömrəsi həkk olunmuşdur.*

*Medal ilgək və halqa vasitəsilə ölçüsü 27 mm x 20 mm olan Azərbaycan Respublikası Dövlət Bayrağının rənglərinə uyğun üçrəngli beşkünc xara lentə birləşdirilmişdir. Lentin yuxarı kənarında qızıl suyuna çəkilmiş ensiz metal lövhə və paltara bərkidilmək üçün element vardır.*

*Medala üzərində Azərbaycan Respublikasının Dövlət bayrağı təsvir edilmiş, paltara bərkidilmək üçün elementi olan 27 mm x 9 mm ölçülü qəlib əlavə olunur.*

